EUROPEAN COURT OF HUMAN RIGHTS
COUR EUROPÉENNE DES DROITS DE L'HOMME

# İNSAN HÜQUQLARI ÜZRƏ AVROPA MƏHKƏMƏSİNİN QƏRARI

BİRİNCİ BÖLMƏ (Strasburq, 18 sentyabr 2014)

" Avanesyan (Avanesyan) Rusiya Federasiyasına qarşı "(Şikayət N 41152/06).
Bu qərar Konvensiyanın 44-sü maddəsinin 2-ci bəndinə uyğun olaraq 2014-ci ilin dekabrın 18-də qüvvəyə minib. Qərarda redaktə dəyişiklikləri ola bilər.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsi (Birinci Bölmə) "Avanesyan Rusiya Federasiyasına qarşı " işinə Palatada aşağıdakı tərkibdə:
Isabell Berro-Lefevr-Palata sədr,
hakimlər: Julia Laffrank,
Paulo Pinto de Albuquerque,
Linos-Alexander Sicilianos,
Eric Mesa
Xenia Turkovic,
Dmitri Dedov, ,
və Soren Nilsen katibliyi ilə,
baxaraq, 26 Avqust 2014-cü ildə qapalı müşavirə keçirərək,
Aşağıdakı qərarı elan etdi:

## PROSEDUR

1. İş Rusiya Federasiyası vətəndaşı Samvel Georgiyeviç Avanesyan tərəfindən (bundan sonra ərizəçi) Rusiya Federasiyasına qarşı İnsan hüquqlarının və əsas azadlıqlarının maddəsi üzrə Konvensiyanın 34-cü maddəsinə uyğun olaraq Avropa İnsan Hüquqları Məhkəməsinə (bundan sonra məhkəmə) verdiyi şikayət (N 41152/06) əsasında 13 Avqust 2006-cı il tarixdə başlanmışdır.

2.İş üzrə Avropa Məhkəməsində ərizəçinin maraqlarını Stavropol vilayətində fəaliyyət göstərən vəki N.Qasparyan təmsil edirdi. Rusiya Federasiyası hökuməti Avropa İnsan Hüquqları Məhkəməsində Rusiya Federasiyasının sabiq səlahiyyətli nümayəndəsi V.V.Milinçik tərəfindən təmsil edilirdi.

3. Ərizəçi mənzilinə hörmət hüququnun həyata keçirilməsinə qanunsuz müdaxilədən və bununla əlaqədar səmərəli hüquqi müdafiə vasitələrinin olmamasından şikayət edirdi.

4. 06 iyul 2007-ci il tarixdə Avropa Məhkəməsi şikayəti Rusiya Federasiyası hökumətinə kommunikasiya etdi.

## 1. Işin halları

5. Ərizəçi 1972-ci ildə anadan olmuşdur, Stavropol vilayətində yaşayır.

6. 22 mart 2006-cı il tarixdə Stavropol vilayəti daxili işlər şöbəsinin rəisinin vəsatətinə əsasən Georgiyevski şəhər məhkəməsinin hakimi ərizəçinin məlumatı olmadan onun mənzilində əməliyyat-axtarış tədbirinin keçirilməsini nəzərdə tutan qərar qəbul etdi. Qərarın mətnində göstərilirdi: Georgiyevski rayon DİŞ-nin rəisinin əməliyyat-axtarış tədbiri keçirilməsi barədə qərarına baxaraq müəyyən etdi: Qərardan və ona əlavə edilmiş izah qeydlərindən müəyyən edilir ki, S.Avanesyanın yaşadığı ünvanda cinayət yolu ilə əldə edilmiş, dövriyyəsi qanunla qadağan edilmiş əşya və predmetlər vardır. Onların aşkar edilməsi və götürülməsi üçün əməliyyat-axtarış tədbirlərinin keçirilməsi zəruridir. Konstitusiyanın 25-ci, Əməliyyat-axtarış fəaliyyəti haqqında qanunun 6-cı maddəsinin 8-ci bəndini rəhbər tutaraq məhkəmə qərara aldı: S.Avanesyanın yaşadığı ünvanda həyətyanı sahəyə, tikili, bina, mənzillərə və nəqliyyat vasitələrinə baxış əməliyyat-axtarış tədbirlərinin keçirilməsinə icazə verilsin.

7. Həmin gün ərizəçiyə məxsus evdə Georgiyevski rayon DİŞ-nin iki əməkdaşı yaşayış sahələrini müayinə etdi.

8. Həmin gün ərizəçi evdə yox idi. Milis əməkdaşları ərizəçinin atasına qərarı göstərdilər. Ərizəçinin atasının ürək tutması baş verdi və təcili tibbi yardım həkimləri gələnədək o öldü.

9. Əmıliyyat-axtarış tədbirinin nəticəsi barədə tərtib edilmiş aktdan müəyyən edilmişdir ki, mənzildə dövriyyəsi qadağan olunmuş heç bir əşya aşkar edilib götürülməmişdir.

10. Ərizəçi 29 mart 2006-cı il tarixdə Georgiyevski rayon prokuroruna polis əməkdaşlarının axtarışı qanunsuz aparmaları barədə şikayət etdi. 10 aprel 2006-cı il tarixdə (yaxud RF hakimiyyət orqanlarının mövqeyinə görə 08 aprel 2006-cı il tarixdə) prokurorluğun müstətntiqi polis əməkdaşlarının qanuni əsaslarla hərkət etdiklərini və ərizəçinin atasının ölümünün təsadüfən mənzilə baxışın aparıldığı vaxta düşdüyünü müəyyən edərək, bu əsasla cinayət işi başlanmasından imtina etdi. Ərizəşinin təsdiq etdiyi kimi 22 mart 2006-cı il tarixli əməliyyat-axtarış tədbiri keçirilməsinə dair məhkəmənin qərarı olması barədə ilk dəfə müstəntiqin cavabından sonra ona məlum olmuşdur.

11. Ərizəçinin 22 mart 2006-cı il tarixli məhkəmə qərarindan məhkəmə nəzarəti qaydasında şikayət vermək cəhdi uğursuz olmuşdur. O, iddia etdi ki, "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Federal Qanunun tələblərinə zidd olaraq, bu qərarda onun evinə baxış keçirilməsi üçün konkret əsaslar göstərilməyib və ondan şübhələnməyə əsas verən hər hansı məlumata istinad etdilməyibdir. O, əvvəllər məhkum edilməmiş, ona cinayət törətməsi barədə ittiham verilməmiş, zərərçəkmiş və ya şahid kimi ifadə verməmişdir. Bundan əlavə, bu qərarın məzmunu çox mücərrəd və qeyri-müəyyən olmaqla, onun evində aşkar edilə biləcək konkret predmetlər göstərilməmişdir. Ərizəçi Konvensiyanın 8-ci maddəsinə və Rusiya Federasiyası Konstitusiyasında nəzərdə tutulmuş yaşayış sahəsinin toxunulmazlığı hüqququna istinad edirdi.

12. 20 İyun və 20 oktyabr 2006-cı il tarixlərdə Stavropol vilayət

məhkəməsinin iki hakimi ərizəçinin nəzarət şikayətlərini baxılmamış saxlayaraq, ərizəçiyə qaytardı. Məhkəmənin cavab məktublarında göstərilirdi ki, Rusiya Federasiyasının "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Federal Qanunu əsasında qəbul edilmiş məhkəmə aktlarına məhkəmə nəzarət qaydasında baxılması nəzərdə tutulmamışdır.

13. Ərizəçi şikayətlə Konstitusiya Məhkəməsinə müraciət edərək "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Federal Qanunun 5-ci maddəsinin konstitusiyaya zidd elan edilməsini tələb etdi. 18 Sentyabr 2007-ci il tarixdə RF Konstitusiya Məhkəməsi ərizəçinin şikayətinə baxılmasına xitam verilməsi barədə ona məlumat verdi və ərizəçiyə aşağıdakılar barədə məlumat verdi:

"RF Konstitusiya Məhkəməsi "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Federal Qanununun bəzi müddəalarının konstitusiyaya uyğunluğunun yoxlanması barədə 14 iyul 1998-ci il tarixli qərarında göstərmişdir ki, vətəndaşların konstitusion hüquqlarının məhdudlaşdırılması ilə bağlı əməliyyat-axtarış tədbirlərinin keçirilməsinə icazə verilməsinin məhkəmə baxışı proseduru, nə məhkəmə araşdırması, nə də məhkəmə iclasına hazırlıq hərəkəti deyil: bu hüquq münasibətində hələ tərəflər yoxdur. Əməliyyat-axtarış tədbirinin keşirilməsinə məhkəmə icazəsi verilməsinə baxılan prosesdə yoxlanılacaq şəxs proses iştirakçısı deyil və məhkəmə iclasında iştirak etməməlidir. Bu prosesdə aşkarlıq, şəffaflıq və tərəflərin çəkişməsi ola bilməz, əks təqdirdə əməliyyat-axtarış tədbirinin gizliliyi pozular və əməliyyat-axtarış fəaliyyətinin özü mənasını itirərdi. Bununla yanaşı yoxlanılan şəxsin əməliyyat-axtarış tədbirinin keçirilməsinə icazə verilməsinə dair məhkəmə iclasında iştirak etməməsi, onun konstitusiun hüquq və azadlıqlarının məhdudlaşdırılması ilə bağlı olan belə tədbirin keçirilməsi üçün şərtlərin və əsasların mövcudluğunu tam həcmdə yoxlamaq vəzifəsindən məhkəməni azad etmir. Məhkəmə tərəfindən qəbul edilmiş qərar, hazırlanan, törədilən yaxud törədilmiş ağır və ya xüsusilə ağır cinayətlərin və hərəkətlərin mövcudluğunu təsdiq edən konkret hallara istinadlarla əsaslandırılmalıdır.

Barəsində məhkəmə qərarı əsasında əməliyyat-axtarış tədbiri keçirildiyi məlum olmuş vətəndaş, bu tədbirin keçirilməsi nəticəsində onun hüquq və qanuni maraqlarının məhdudlaşdırıldığı nəticəsinə gələrsə, "Əməliyyat-axtarış fəaliyyəti" haqqında Federal qanunun 5-ci maddəsinə əsasən, hüquqlarının müdafiəsi üçün qanunla müəyyən edilmiş prosessual qaydalara və məhkəmə aidiyyətinə əməl etməklə məhkəməyə müraciət edə bilər.

Rusiya Federasiyası Konstitusiya Məhkəməsinin bu hüquqi mövqeyi öz aktyallığını hazırkı vaxtadək saxlamışdır. Bundan başqa hüquqmühafizə orqanları tərəfindən konkret normativ-hüquqi aktın təfsiri və tətbiqinin düzgünlüyünü qiymətləndirmək Rusiya Federasiyası Konstitusiya Məhkəməsinin səlahiyyətlərinə aid deyildir."

## II. Müvafiq Dövlətdaxili Qanunvericilik.

### A. "Əməliyyat-axtarış fəaliyyəti haqqında" 12 avqust 1995-ci il tarixli Federal qanun.

14. "Əməliyyat-axtarış fəaliyyəti haqqında" federal qanun hazırkı işin baş verdiyi vaxt qüvvədə olduğu zaman aşağıdakıları nəzərdə tuturdu:

Maddə 1. Əməliyyat-axtarış fəaliyyəti

Əməliyyat-axtarış fəaliyyəti —dövlət orqanlarının əməliyyat bölmələri tərəfindən aşkar və qeyri-aşkar üsullarla bu Federal Qanunla müəyyən edilmiş səlahiyyətlər həddində, əməliyyat-axtarış tədbirinin keçirilməsi vasitəsilə, insan və vətəndaşın həyatını, sağlamlığını, hüquq və azadlıqlarını, hüquqi şəxslərin qanuni mənafelərini, mülkiyyəti, cəmiyyətin və dövlətin təhlükəsizliyini cinayətkar qəsdlərdən müdafiə etmək məqsədi ilə həyata keçirilən fəaliyyət növüdür.

Maddə 2. Əməliyyat-axtarış fəaliyyətinin vəzifələri

Əməliyyat-axtarış fəaliyyətinin vəzifələri aşağıdakılardır:

- Cinayətlərin aşkar edilməsi, açılması, qarşısının alınması və profilaktikası, eləcə də cinayətləri hazırlayan, törədən və ya törətmiş şəxslərin müəyyən edilməsi.

Maddə 5. Əməliyyat-axtarış fəaliyyəti həyata keçirilərkən İnsan və vətəndaş hüquq və azadlıqlarının təminatları

... Əməliyyat-axtarış fəaliyyətini həyta keçirən orqanın hərəkəti nəticəsində hüquq və azadlıqları pozulmuş hər bir şəxs həmin əməliyyat-axtarış fəaliyyətinin subyektinin tabe olduğu yuxarı orqanının rəhbərinə, prokurora və ya məhkəməyə şikayət etmək hüququna malikdir.

Maddə 6. Əməliyyat-axtarış fəaliyyəti

Əməliyyat-axtarış fəaliyyəti həyata keçirilərkən aşağıdakı əməliyyat-axtarış tədbirləri aparılır:

...8 binaların, tikililərin, qurğuların, torpaq sahələrinin və nəqliyyat vasitələrinin müayinə edilməsi

Maddə 8. Əməliyyat-axtarış tədbirlərinin tətbiqinin şərtləri

İnsan və vətəndaşın konstitusion hüquqlarının, mənzil toxunulmazlığının məhdudlaşdırılmasını nəzərdə tutan əməliyyat-axtarış tədbirlərinin tətbiqi məhkəmənin qərarı əsasında və aşağıdakılar barədə məlimat olduqda keçirilir:

1. İbtidai istintaqın aparılması məcburi olan, hazırlanan, törədilən və ya törədilmiş qanunazidd əməlin əlamətləri haqqında;
2. İbtidai istintaqın aparılması məcburi olan, qanunazidd əməli hazırlayan, törədən və ya törətmiş şəxs haqqında

Maddə 9.Əməliyyat-axtarış tədbirlərinin tətbiqi zamanı vətəndaşların konstitusion hüquqlarının məhdudlaşdırılmasına dair materiallara məhkəmə baxışının əsasları və qaydası

Vətəndaşların mənzil toxunulmazlığına dair konstitusion hüquqlarının məhdudlaşdırılması ilə əlaqədar əməliyyat-axtarış tədbirlərinin tətbiqi barədə materiallara bir qayda olaraq bu tədbirlərin keçirildiyi yer və ya bu tədbirin keçirilməsi barədə vəsatət vermiş orqanın yerləşdiyi yer üzrə mhəkəmə tərəfindən baxılır.

Göstərilən materiallara buna səlahiyyəti olan hakim tərəfindən təkbaşına və təxirə salınmadan baxılmalıdır. Hakim bu materiallara baxmaqdan imtina edə bilməz.

Vətəndaşların mənzil toxunulmazlığı konstitusion hüquqlarının məhdudlaşdırılması ilə əlaqədar əməliyyat-axtarış tədbirlərinin tətbiqi barədə məhkəmənin qərarı, əməliyyat-axtarış tədbirini tətbiq edən orqanın rəhbərlərindən birinin əsaslandırılmış qərarı əsasında qəbul edilir.

Göstərilən materiallara baxılması nəticəsində hakim müvafiq əməliyyat-axtarış tədbirlərinin tətbiqi barədə və ya tətbiqindən imtina barədə əsaslandırılmış qərar qəbul edir.

Məhkəmənin möhürü ilə təsdiq edilmiş qərar əməliyyat-axtarış tədbirlərinin tətbiqinin təşəbbüskarına verilir və eyni zamanda təqdim edilmiş materiallar ona qaytarılır.

Hakim əməliyyat-axtarış tədbirlərinin tətbiqindən imtina barədə qərar qəbul etdikdə əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqan bu məsələ ilə əlaqədar yuxarı məhkəməyə müraciət edə bilər.

Maddə 12. Əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanlar barədə məlumatların mühafizəsi.

Əməliyyat-axtarış tədbirlərinin tətbiqi barədə məhkəmə qərarı və onun qəbul edilməsinə əsas olmuş materiallar əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanlarda saxlanılır.

## B. Rusiya Federasiyasının Mülki-Prosessual Məcəlləsi

15. Rusiya Federasiyası Mülki-Prosessual Məcəlləsinin hazırkı işə aid müddəaları aşağıdakıları nəzərdə tutur:

Maddə 22. Mülki işlərin məhkəmə aidiyyəti

Məhkəmələrin baxdığı və həll etdiyi işlər:

...3) Ümumi (publik) hüquq münasibətlərindən yaranan və bu Məcəllənin 245-ci maddəsində göstərilən işlər...

Maddə 245. Ümumi (publik) hüquq münasibətlərindən yaranan işlər

Məhkəmə ümumi (publik) münasibətlərdən yaranan işlərə baxır:

-normativ hüquqi aktların tan və ya qismən mübahisələndirilməsinə dair vətəndaşların, təşkilatların və prokurorun ərizələri üzrə;

-dövlət hakimiyyəti orqanlarının, yerli özünüidarə orqanlarının, vəzifəli şəxslərin, dövlət və bələdiyyə qulluqçularının qərarlarının və hərəkətlərinin (hərkətsizliklərinin) mübahisələndirilməsi barədə ərizələr üzrə

17. Rusiya Federasiyasının Konstitusiya Məhkəməsı 08 fevral 2007-ci il tarixli qərarı ilə "Əməliyyat-axtarış fəaliyyəti" haqqında Federal qanunun 9-cu maddəsinin konstitusiyaya uyğunluğunun yoxlanmasına dair hissədə iş üzrə icraata xitam verdi. Konstitusiya Məhkəməsı belə nəticəyə gəldi ki, əməliyyat-axtarış tədbirinin keçirilməsi barədə qərar qəbul etməzdən əvvəl məhkəmə belə tədbirin keçirilməsi üçün əsasların mövcudluğunu yoxlamalıdır. Məhkəmə tərəfindən qəbul edilmiş qərar hazırlanan, törədilən və törədilmiş cinayət əlamətlərinin, yaxud Rusiya Federasiyasının dövlət, hərbi, iqtisadi və ekoloji təhlükısizliyinə təhlükə yaradan hadisə və hərəkətlərin (hərkətsizliyin), eləcə də barəsində əməliyyat-

axtarış tədbirinin keçirilməsi planlaşdırılan şəxsin bu cinayət və hadisələrə aidiyyətinin mövcudluğunu təsdiq edən konkret əsaslara istinad etməli və əsaslandırılmalıdır.

## HÜQUQİ MƏSƏLƏLƏR

### I. Konvensiyanın 8-ci və 13-cü maddələrinin iddia edilən pozuntusu

18. Ərizəçi şikayət edirdi ki onun mənzilində axtarış aparılması Konvensiyanın 8-ci maddəsinin pozulmasına səbəb olmuş, eləcə də Konvensiyanın 13-cü maddəsinin tələblərinə zidd olaraq hüquqlarının müdafiəsi üçün heç bir səmərəli hüquqi müdafiə vasitəsinə malik olmamışdır.

Konvensiyanın 8-ci maddəsi:

1. Hər kəs öz şəxsi və ailə həyatına, mənzilinə və yazışma sirrinə hörmət hüququna malikdir.

2. Milli təhlükəsizlik və ictimai asayiş, ölkənin iqtisadi rifah maraqları naminə, iğtişaş və ya cinayətlərin qarşısını almaq üçün, sağlamlığı yaxud mənəviyyatı qorumaq üçün və ya digər şəxslərin hüquq və azadlıqlarını müdafiə etmək üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan hallar istisna olmaqla, bu hüququn həyata keçirilməsinə dövlət hakimiyyəti orqanları tərəfindən müdaxiləyə yol verilmir.

Konvensiyanın 13-cü maddəsi:

Bu Konvensiyada təsbit olunmuş hüquq və azadlıqları pozulan hər kəs, hətta bu pozulma rəsmi fəaliyyət göstərən şəxslər tərəfindən törədildikdə belə, dövlət orqanları qarşısında səmərəli hüquqi müdafiə vasitələrinə malikdir.

### A. Şikayətin qəbuledilənliyi

19. Rusiya Federasiyası hökuməti ilk növbədə qeyd etdi ki, şikayət çox böyük gecikmə ilə verilmişdir. Şikayətdə onun 15 noyabr 2006-cı il tarixdə tərtib edildiyi göstərilmiş, 07 dekabr 2006-cı il tarixdə Avropa Məhkəməsinin katibliyinə verilmişdir. Rusiya Federasiyası hökumətinin fikrinə görə, altı aylıq müddətə əməl edilməsi üçün şikayət 08 noyabr 2006-cı il tarixədək verilməli idi.

20. Avropa Məhkəməsi xatırladır ki, onun formalaşmış presedent təcrübəsinə görə və işə baxılan dövrdə qüvvədə olmuş redaksiyada Məhkəmə Reqlamentinin 47-ci qaydasının 5-ci bəndinə əsasən şikayətin verilmə tarixi ümumi qaydaya əsasən ərizəçinin şikayət vermək arzusu barədə və şikayətin xarakteri barədə ilkin xəbərdarlıq məktubunun tarixidir. Belə ilkin xəbərdarlıq prinsipcə altı aylıq müddətin axımını dayandırır.

21. Ərizəçi 13 avqust 2006-cı il tarixli poçt ştampı vurulmuş məktubunda evində axtarış aparılması ilə əlaqədar şikayət vermək niyyətində olduğunu bildirmiş və şikayəti ilə əlaqədar müvafiq faktlar barədə qısa məlumat yazmışdır. Ərizəçinin bu xəbərdarlığı kifayət idi ki, 22 mart 2006-cı il tarixdən axımı başlamış altı aylıq

müddətin axımı dayansın. Beləliklə şikayətin verilməsi müddəti pozulmadığından Rusiya Federasiyasının bu barədə etirazları rədd edilməlidir.
22. Bundan başqa Rusiya Federasiyası hökuməti milis əməkdaşları barəsində cinayət işinin başlanmasının rədd edilməsi barədə müstəntiqin qərarından yuxarı prokurora və məhkəməyə ərizəçinin şikayət etməməsinə istinad edərək, onun dövlətdaxili hüquqi müdafiə vasitələrini tükəndirmədiyini iddia edirdi.
23. Avropa Məhkəməsi qeyd edir ki, ərizəçinin Konvensiyanın 13-cü maddəsinin pozulması barədə şikayətinə mahiyyəti üzrə baxmadan Rusiya Federasiyası hökumətinin dövlətdaxili hüquqi müdafiə vasitələrinin tükəndirilməməsi barədə etirazının əsaslılığına qiymət verilə bilməz. Bununla da bu etirazın əsaslılığı işə mahiyyəti üzrə baxılması gedişində tədquq edilməlidir.
24. Beləliklə Avropa Məhkəməsi hesab edir ki, konvensiyanın 8-ci və 13-cü maddələrinin pozulmasına dair ərizəçinin şikayəti konvensiya nöqteyi nəzərindən hüquq və fakt barədə çox ciddi məsələlər qaldırmışdır ki, onların həll edilməsi üçün işə mahiyyəti üzrə baxılmalıdır. Buradan belə nəticə çıxır ki, ərizə mahiyyəti üzrə baxılması üçün məqbul elan edilməlidir.

## B. Şikayətin mahiyyəti

### 1. Konvensiyanın 13-cü maddəsinin tələblərinin pozuntusu

25. Rusiya Federasiyası hökuməti israr edirdi ki, barəsində əməliyyat axtarış tədbirinin keçirilməsi məlum olan və bununla əlaqədar hüquqlarının pozulduğunu güman edən şəxs Rusiya Federasiyası MPM-nin 22 və 245-ci maddələrinə əsasən hüquqlarının müdafiəsi üçün məhkəməyə müraciıt edə bilər. Rusiya Federasiyası hökumətinin mövqeyinə görə "Əməliyyat-axtarıaş fəaliyyəti haqqında" federal qanunun 12-ci maddəsinin 3-cü hissəsinə əsasən əməliyyat-axtarış tədbirinin keçirilməsinə icazə verən məhkəmə qərarı və belə qərarın qəbul edilməsinə əsas olan materiallar yalnız əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək hüququ olan orqanlarda saxlanılır və əməliyyat-axtarış tədbirinin qeyri-leqal xarakterinə görə məhkəmə nəzarətinə məruz qala bilmədiyindən ərizəçinin hüquqları pozulmamışdır. Hazırkı işin hallarına görə ərizəçi axtarışı aparan polis əməkdaşlarının hərəkətlərindən prokurora və məhkəməyə şikayət etməli idi.

26. Ərizəçi qeyd edirdi ki, "Əməliyyat-axtarıaş fəaliyyəti haqqında" federal qanuna əsasən əməliyyat-axtarış tədbirinin keçirilməsinə icazə verən məhkəmə qərarı deyil, yalnız bu tədbiri həyata keçirən orqanların hərəkətləri məhkəmə nəzarətinə məruz qala bilərdi. Rusiya Federasiyası hökuməti tərəfindən təklif edilən, ümumi hüquq münasibətlərindən doğan mülki mühakimə qaydasında şikayət verilməsi səmərəli hüquqi müdafiə vasitəsi deyildir, ona görə ki, belə şikayətə baxılmsı ərizəçinin evində qanunsuz axtarış aparılmasına dair 22 mart 2006-cı il tarixli məhkəmə qərarının qanuniliyini yoxlamağa imkan vermir. 22 mart 2006-cı il tarixli məhkəmə qərarı qüvvədə olduğu halda axtarışın aparılmasının qanunsuz hesab edilməsinə nail olmaq mümkünsüzdür. "Əməliyyat-axtarıaş fəaliyyəti haqqında" federal qanunun 5-ci maddəsi, daxili işlər

orqanlarının hərkətlərindən, əməliyyat-axtarış tədbirinin keçirilməsinə icazə vermiş rayon məhkəməsinə şikayət verilməsini nəzərdə tutduğundan, həmin qərarın qanuniliyinə hüquqi qiymət verilməsi prinsipcə eyni instansiya məhkəməsinin başqa hakimi tərəfindən həyata keçirilməli idi. Axtarış keçirən milis əməkdaşları müvafiq hərəkətin aparılmasına icazə verən məhkəmə qərarına əsaslandıqlarından belə qiymətverme qaçılmaz idi. Belə halda "Əməliyyat-axtarıaş fəaliyyəti haqqında" federal qanunun 5-ci maddəsində nəzərdə tutulmuş prosedur sadəcə formallıqdır və səmərəli hüquqi müdafiə vasitəsi hədlərinə uyğun deyildir. Ərizəçi qeyd edirdi ki, ölkədaxili iki məhkəmə instansiyası 22 mart 2006-cı il tarixli məhkəmə qərarına məhkəmə nəzarəti qaydasında baxılması barədə onun müraciətlərinə rədd cavabı vermişdilər. Nəhayət ərizəçi qeyd etdi ki, qüvvədə olan qanunvericiliyə əsasən  məhkəmələr öz qərarlarının gələcəkdə yuxarı məhkəmə instansiyası tərəfindən ləğv ediləcəyi təhlükəsindən çəkinmədən hər hansı şəxsin barəsində, hər hansı əsasla əməliyyat-axtarış tədbirinin keçirilməsinə icazə verən qərar qəbul edə bilərlər.

27. Avropa məhkəməsi xatırladır ki, Konvensiyanın 35-ci maddəsində nəzərdə tutulmuş dövlətdaxili hüquqi müdafiə vasitələrinin tükəndirilməsi barədə tələb, konvenciyanın 13-cü maddəsində əksini tapmış müddəalarla sıx bağlı olan, dövlətdaxili hakimiyyət orqanları tərəfindən konvensiyanın pozulmasına dair şəxsin əsaslı şikayətinə baxılmasına nail olmağa və zəruri hallarda kompensasiya almağa şəxsə imkan verən səmərəli hüquqi müdafiə vasitələrinin mövcudluğunu nəzərdə tutur. Hüquqi müdafiə vasitələrinin mövcudluğu işə baxılmasının ərizəçi üçün sərfəli nəticə verəcəyinə inamından asılı deyil. Eyni zmanda bu hüquqi müdafiə vasitəsi həm nəzəri, həm də praktiki cəhətdən səmərəli olmalı, insan hüququnun gözlənilən pozuntusunun qarşısının alınmasına və ya aradan qaldırılmasına, yaxud baş vermiş pozuntunun zərərli nəticələrinin yetərincə kompensasiya edilməsinə  imkan verməlidir. Hüquqi müdafiə vasitələrinin səmərəliliyinə avropa məhkəməsini inandırmaq vəzifəsi, müvafiq hüquqi müdafiə vasitələrinin tükəndirilmədiyini israr edən cavabdeh dövlətin üzərinə düşür *(bax. Avropa məhkəməsinin 10 yanvar 2012-ci il tarixli Ananev və başqaları Rusiyaya qarşı qərarı).*

28. Göründüyü kimi milis əməkdaşları ərizəçinin evində lazımi əsaslar olmadan axtarış apardıqlarından avropa məhkəməsi hesab edir ki, onun özünü konvensiyanın 8-ci maddəsində nəzərdə tutulmuş mənzil toxunulmazlığına hörmət hüququnun pozulmasının qurbanı hesab etməyə əsası vardır (Diallo Çex Respublikasına qarşı Avropa Məhkəməsinin 23 iyun 2011-ci il tarixli qərarı ).

Beləliklə konvensiyanın 13-cü maddəsi tələb edir ki, ərizəçiyə onun şikayəti əsasında müvafiq kompensasiya ödənilməsi barədə qərar qəbul etmək cəlahiyyəti olan dövlətdaxili hakimiyyət orqanlarına müraciət etmək imkanı verən dövlətdaxili hüquqi müdafiə vasitələri təqdim edilsin.

29. Avropa Məhkəməsi qəbul edir ki, gizli tədbirlərin xüsusi kontekstində, keçiriləcək axtarış barədə əvvəlcədən bilinməməsi üçün tərəflərin iştirakı olmadan məhkəmə qərarının qəbul edilməsi üçün tutarlı əsaslar mövcud ola bilər. Bu halda səmərəli hüquqi müdafiə vasitəsi anlayışı axtarış aparılanadək, bu barədə veilmiş

qərardan şikayət verilməsi imkanının olmasını mütləq nəzərdə tutmur (İlya Stefanov Bolqarıstana qarşı Avropa Məhkəməsinin 22 may 2008-ci il tarixli qərarı). Lakin, axtarış aparıldıqdan sonra, yaxud digər başqa şəkildə axtarış aparılması qərarı barədə şəxsə məlum olduqdan sonra, qərarın verilməsinin hüquqi və faktiki əsaslarını mübahisələndirmək və əgər qərarın verilməsi və axtarışın aparılması qanunsuz olmuşsa kompensasiya almaq imkanı verən prosedur mövcud olmalıdır.

30. Avropa Məhkəməsi qeyd edir ki, əməliyyat-axtarış tədbirinin keçirilməsi barədə məhkəmə qərarına yuxarı məhkəmə instansiyasında yenidən baxılmır. "Əməliyyat-axtarıaş fəaliyyəti haqqında" federal qanun, bu tədbirin gizlin saxlanması üçün zərurət aradan qalxdıqdan, axtarış aparıldıqdan və şəxsə belə qərarın mövcudluğu barədə bəlli olduqdan sonra da bu qərardan şikayət vermək imkanını nəzərdə tutmur. Ərizəçinin bu qərardan vilayət məhkəməsinə şikayət vermək cəhdi uğursuz nəticələnmiş və verilmiş şikayət "Əməliyyat-axtarıaş fəaliyyəti haqqında" federal qanunun müddəalarına istinad edilməklə baxılmamış saxlanmışdır.

31. "Əməliyyat-axtarıaş fəaliyyəti haqqında" federal qanunun 5-ci maddəsinə əsasən, barəsində əməliyyat-axtarış tədbiri keçirilməsi nəticəsində hüquqları pozulmuş şəxs, əməliyyat-axtarış fəaliyyətini həyata keçirmiş orqanın hərəkətlərindən yuxarı orqana, prokurora və ya məhkəməyə şikayət verə bilər. Lakin, bu halda, yalnız əməliyyat-axtarış tədbirini icra edən vəzifəli şəxslərin, bu tədbirin tətbiqinə əsas verən məhkəmə qərarının və axtarış aparılmasına dair tətbiq edilməli olan qanunun tələblərinə əməl edilməməsi üzrə hərəkətləri baxış predmeti ola bilər. Əməliyyat-axtarış tədbirinin keçirilməsi barədə məhkəmə qərarının qəbul edilməsi üçün kifayət qədər və lazımi əsasların mövcudluğu və bu qərarın qanunun tələblərinə uyğun olub-olmaması barədə ərizəçinin şikayətində göstərilən dəlillər məhkəmənin baxış predmetindən kənarda qalır.

32. Avropa Məhkəməsi xatırladır ki, əməliyyat-axtarış tədbirini həyata keçirən orqanın hərəkətindən tabeçilik qaydasında yuxarı orqana şiakyət verilməsi, tələb olunan müstəqillik standartlarına və hakimiyyət səlahiyyətlərindən sui-istifadə hallarından zəruri müdafiə tələblərinə cavab vermir. Prokurora şikayət verilməsi də, şikayət vermiş şəxsə dövlətin nəzarət səlahiyyətlərinin həyata keçirilməsində şəxsən iştirak etmək imkanı verilmədiyindən səmərəli hüquqi müdafiə vasitəsi hesab edilmir. Əməliyyat-axtarış tədbirinin keçirilməsinə hüquq verən məhkəmə qərarının qanuniliyinə və onun qəbul edilməsi üçün qanuni əsasların mövcudluğuna nə yuxarı hakimiyyət orqanı, nə də prokuror münasibət bildirmək hüququna malik deyillər.

33. Avropa Məhkəməsi qeyd edir ki, "Əməliyyat-axtarıaş fəaliyyəti haqqında" federal qanunun 5-ci maddəsində məhkəməyə şikayət vermək imkanı nəzərdə tutulduğundan, belə şikayətlərə Rusiya Federasiyası hökumətinin izahatlarına görə qanunla müəyyən edilmişdir aidiyyət və prosessual qaydalara əməl edilməklə Rusiya Federasiyası MPM-nin müddəalarına əsasən ümumi hüquq münasibətlərindən doğan işlər kimi mülki mühakimə qaydasında baxılmalıdır. Həm "Əməliyyat-axtarıaş fəaliyyəti haqqında" federal qanunun 5-ci maddəsi və

həm də Rusiya Federasiyası MPM-nin 245-ci maddəsi əməliyyat-axtarış tədbirinin tətbiqi və müvafiq şəxsə münasibətdə əməliyyat işinin uçotunun aparılmasının əsaslılığı üzrə vəzifəli şəxslərin hərkətlərinə məhkəmə nəzarətinin mövcudluğunu nəzərdə tutur. Lakin bu nəzarət əməliyyat-axtarış tədbirinin keçirilməsinə hüquq verən məhkəmənin qərarının qanuniliyinə aid edilmir. "Əməliyyat-axtarıaş fəaliyyəti haqqında" federal qanunun 12-ci maddəsinin üçüncü hissəsinə əsasən əməliyyat-axtarış tədbirinin keçirilməsinə hüquq verən məhkəmə qərarı yalnız əməliyyat-axtarıaş fəaliyyətini həyata keçirən orqanlarda saxlanılır. Avropa Məhkəməsi ərizəçinin həm də o dəlilini nəzərə alır ki, mülki işə baxan eyni məhkəmə instansiyasının hakimi əməliyyat-axtarış tədbirinin keçirilməsinə hüquq verən məhəkmə qərarını, ondan şikayət verilmədiyi halda nə ləğv edə nə də ona yenidən baxa bilməz. Belə işlərə baxılması zamanı Rusiya Federasiyası məhkəmələri səmərəli hüquqi müdafiə vasitələri təqdim edə bilmir, ona görə ki, onlarda ərizəçinin mənzilinə hörmət hüququnun həyata keçirilməsinə müdaxilədə özünü göstərən konvensiyanın pozulmasına dair şikayətlərə baxılması imkanı və bundan əlavə müvafiq kompensasiya müəyyən etmək imkanı da qanunda nəzərdə tutulmamışdır.

34. Nəhayət, mənzildə axtarış aparmış milis əməkdaşlarının barəsində cinayət təqibinə xitam verilməsinə dair müstəntiqin qərarından ərizəçinin şikayət verməli olduğu barədə Rusiya Federasiyası hökumətinin dəlilinə baxmaq qalır. Avropa Məhkəməsi xatırladır ki, səmərəli hüquqi müdafiə vasitəsi anlayışı mənzildə axtarış aparmış şəxslərin barəsində cinayət işinin başlanmasını tələb etmir. Bundan başqa milis əməkdaşlarının təqib edilməsi, hətta uğurlu olsa da belə, bu yalnız onların öz hərkətləri barəsində mümkündür və axtarışın keçirilməsinə hüquq verən məhkəmə qərarının qanuniliyi haqqında məsələnin mahiyyətinə baxılmasına gətirib çıxarmır.

35. Rusiya Federasiyası hökuməti ərizəçinin mənzilinə hörmət hüququnun müdafiəsi və zərərin kompensasiyası üçün başqa üsul göstərə bilmədi. Beləliklə də onlar hazırkı iş üzrə mənzildə axtarışın qanunsuzluğu ilə əlaqədar səmərəli hüquqi müdafiə vasitələrinin mövcudluğunu göstərə bilmədilər.

36. Göstərilənləri nəzər alaraq Avropa Məhkəməsi ərizəçinin dövlətdaxili hüquqi müdafiə vasitələrini tükəndirmədiyi barədə Rusiya Federasiyası hökumətinin etirazlarını rədd edir və nəticəyə gəlir ki, konvensiyanın 13-cü maddəsinin tələblərinə baxmayaraq ərizəçi səmərəli hüquqi müdafiə vasitələrinə malik olmamışdır. Bununla da Konvensiyanın 13-cü maddəsinin tələblərinin Konvensiyanın 8-ci maddəsi ilə əlaqədar pozuntusu baş vermişdir.

2.Konvensiyanın 8-ci maddəsinin tələblərinin pozuntusu

37. Rusiya Federasiyası hökuməti etiraf edirdi ki, ərizəçinin mənzilinə hörmət hüququnun həyata keçirilməsinə müdaxilə həqiqətən mövcud olmuşdur, lakin bu müdaxilə Konvensiyanın 8-ci maddəsinin 2-ci bəndinin mahiyyəti baxımından əsaslıdır. Bu müdaxilə "Əməliyyat-axtarıaş fəaliyyəti haqqında" federal qanunun 7-ci maddəsinin 2-ci hissəsinin 1-ci bəndi ilə əsslandırılırdı və cinayət yolu ilə əldə

edilmiş, dövriyyəsi qadağan edilmiş predmetlərin, narkotik vasitələrin və silahların aşkar edilib götürülməsi barədə qanuni məqsəd daşıyırdı. (права на уважение своего жилища)

38. Ərizəçi qeyd etdi ki, onun mənzilində axtarış keçirilməsinə hüquq verən məhkəmə qərarı, mənzilində dövriyyəsi qadağan olunmuş predmetlərin, cilahın, döyüş sursatının və narkotik vasitələrin qanunsuz saxlaması barədə əməliyyat məlumatı əsasında qəbul edilə bilərdi. Ərizəçinin fikrincə o heç vaxt cinayət törətməkdə şübhəli bilinmədiyindən, cinayət törtəməyə cəhd etmədiyindən, cinayət işləri üzrə zərər çəkmiş şəxs və şahid qismində ifadə vermədiyindən, narkotik vasitələr istifadə etmədiyindən və dövriyyəsi qadağan olunmuş əşyalar saxlamadığından onun barəsində belə bir məlimat ola bilməzdi. Məhkəmənin qərarı ehtimallarla əsaslandırılmışdır və qərarda konkret olara mənzildə cinayət yolu ilə əldə edilmiş, dövriyyəsi qadağan olunmuş hansı predmetlər, cilah, döyüş sursatı, narkotik vasitələr saxlanması göstərilməmişdir. Məhkəmənin qərarında axtarışın aparılmasına əsas verən konkret dəlillərin göstərilməməsi ərizəçinin mənzilində axtarış aparılmasının əsassızlığını sübut edir. "Əməliyyat-axtarıaş fəaliyyəti haqqında" federal qanunun 9-cu maddəsinin tələbinə zidd olaraq məhkəmənin qərarı əsaslandırılmamışdır .

39. Avropa Məhkəməsi qeyd edir ki, 22 mart 2006-cı il tarixdə 2 milis əməkdaşı ərizəçinin evindəki yaşayış otaqlarını müayinə etdilər. İcra etmə üsuluna və praktiki nəticələrinə görə bu müayinə axtarışdan heç nə ilə fərqlənmirdi. Avropa Məhkəməsinin qənaətinə görə Rusiya Federasiyasının qanunvericiliyinə uyğun olaraq bu hərəkət necə tövsif edilməsindən asılı olmayaraq, özlüyündə ərizəçinin mənzilinə hörmət hüququnun həyata keçirilməsinə müdaxilə idi. İş üzrə tərəflər bu nəticəni mübahisələndirmirdilər. Əgər bu müdaxilənin "qanunla nəzərdə tutulmasının", Konvensiyanın 8-ci maddəsinin 2-ci bəndində göstərilən bir və ya bir neçə qanuni məqsədlər daşımasının və demokratik cəmiyyətdə zəruri olmasının sübut olunması mümkün deyilsə, onda bu müdaxilə Konvensiyanın 8-ci maddəsinin pozuntusuna səbəb olur.

40. Tərəflərin bu müdaxilənin qanuni olmasında və Georgiyevsk şəhər məhkəməsinin qərarının "Əməliyyat-axtarıaş fəaliyyəti haqqında" federal qanunun 9-cu maddəsinin tələb etdiyi kimi əsaslandırılmamasında fikirləri müxtəlif idi. Bu məsələyə münasibətdə Avropa Məhkəməsi fikir söyləməyə də bilərdi, lakin, qanunilik məsələləri müdaxilənin mütənasibliyinin müəyyən edilməsində əhəmiyyətə malik olduğundan bu məsələlərə aşağıda baxılacaqdır.

41. Qərara alınmış axtarışın məqsədlərini (cinayət yolu ilə əldə olunmuş dövriyyəsi qadağan olunmuş predmetlərin aşkar edilməsi) nəzərə alaraq, Avropa Məhkəməsi razılaşmağa hazırdır ki, şikayət verilmiş tədbir qanuni məqsədlər, yəni cinayətin və ixtişaşın qarşısını almaq məqsədi güdürdü.

42. Mütənasiblik tələbinə gəldikdə, Avropa Məhkəməsi bu hədlərə əməl edilib-edilməməsini müəyyən edərkən, axtarışın aparılmasına əsas olmuş hüquq pozuntusunun ağırlığını, axtarış aparılmsına sanksiya verilməsinin üsul və hallarını, axtarış barədə qərar verilməsinə əsas olmuş şübhələrin əsaslılığını, axtarışın keçirilməsi barədə qərarın məzmunu və xarakterini, axtarış aparılacaq

otaqların xüsusiyyətlərinin nəzərə alınmasını və axtarışın nəticələrinin ağlabatanlıq çərçivəsindən çıxmayacağına təminatların olması hallarını nəzərə almalıdır. *(İlya Stefanov Bolqarıstana qarşı Avropa Məhkəməsinin qərarı)*

43. Avropa Məhkəməsi qeyd edir ki, hazırkı iş üzrə ərizəçinin evində axtarış şəhər məhkəməsinin qərarı əsasında aparılmışdır. Avropa Məhkəməsi hesab edir ki, bu qərarın qəbul edilməsi zamanı tərəflərin iştirakının təmin edilməməsi özü-özlüyündə hər hansı problem yaratmır. Bununla yanaşı axtarış barədə orderin verilməsi barədə vəsatətə münasibətdə yalnız ilkin məhkəmə nəzarətinin mövcudluğu özü-özlüyündə cui-istifadə hallarından kifayət qədər möhkəm təminatlara mütləq qarantiya hesab edilmir *(Qrişenko Ukraynaya qarşı Avropa Məhkəməsinin 07 noyabr 2013-cü il tarixli qərarı).* Avropa Məhkəməsi işin konkret hallarına baxmalı və müəyyən etməlidir ki, hüquqi baza və müvafiq səlahiyyətlərin həyata keçirilməsinin hədləri hökumət orqanlarının özbaşına müdaxilələrindən kifayət qədər səmərəli müdafiəni təmin etmişdir. Rusiya Federasiyasına qarşı şikayətlər üzrə əvvəllər baxılan işlərdə Avropa Məhkəməsi Konvensiyanın 8-ci maddəsinin pozuntusunu başlıca olaraq axtarış qərarlarının qeyri-müəyyənliyində, məzmununun həddindən çox ümumi xarakterli olmasında müəyyən etmişdir. Belə qərarlar axtarışı icra edən orqanlara imkan verirdi ki, yalnız öz subyektiv mülahizələrinə əsasən hansı hərkətlərin aparılmasına yol verildiyini müəyyən etsinlər *(Kolesniçenki Rusiya Federasiyasına qarşı Avropa Məhkəməsinin 22.12.2008 qərarı).*

44. Hazırkı iş üzrə qərarda axtarış zamanı yol verilən hərəkətlər barədə göstərişin olmaması və axtarışın nəticələrinin ağlabatanlıq çərçivəsindən çıxmayacağına təminatın olmaması xüsusilə vacib əhəmiyyətə malikdir. 22 mart 2006-cı il tarixli axtarış aparılması barədə məhkəmə qərarında Ərizəçinin barəsində ibtidai istintaq aparılmasına, ərizəçinin hər hansı cinayətin törədilməsində şübhəli bilinməsinə, belə şübhələrə əsasların yaranmasına, bu şübhələri təsdiq edən sübutlara istinad edilməmişdir. Bu hal  yalnız hazırlanan, törədilən və törədilmiş cinayətlərin əlamətləri haqqında və cinayətləri hazırlayan, törədən və törətmiş çəxslər barəsində məlumatlar olduqda mənzil toxunulmazlığı hüququnu məhdudlaşdıran əməliyyat-axtarış tədbirlərinin keçirilməsinə imkan verən “Əməliyyat-axtarıaş fəaliyyəti haqqında” federal qanunun 8-ci maddəsinin tələblərini pozur. Daha sonra məhkəmə qərarında ərizəçinin evində “cinayətkar hərəkətlər nəticəsində və ya cinayət yolu ilə əldə edilmiş, dövriyyəsi qadağan olunmuş hansı əşyaların və predmetlərin ola bilməsi və hansı halların ərizəçinin evində həmin əşyaların saxlanması nəticəsinə gəlməyə  imkan verməsi barədə göstərməmişdir. Nəhayət qərarda axtarışın məqsədləri, ərizəçinin evində axtarış nəticəsidə cinayət törədilməsinin sübutlarının əldə ediləcəyini güman etməyə əsaslar göstərilməmişdir. Bütövlükdə Avropa Məhkəməsi belə nəticəyə gəlir ki, 22 mart 2006-cı il tarixli qərarda ərizəçinin öz mənzilinə hörmət hüququnun həyata keçirilməsinə müdaxilə üçün “lazımi” və “kifayət qədər” əsaslar göstərilməmişdir. Bu qərara yenidən baxılması mümkün olmaması ilə bərabər, həm də milis əməkdaşlarına öz səlahiyyətlərinin həyata keçirilməsi üçün hər hansı real çərçivə müəyyən etmirdi. Qərar həddindən çox qeyri-müəyyən olmaqla ərizəçinin öz

hüqularının həyata keçirilməsinə müdaxilə ilə qanuni məqsədlərə nail olmaq arasında mütənasiblyi pozan çoxlu boşluqları var idi.

45. Beləliklə konvensiyanın 8-ci maddəsinin pozulması baş vermişdir.

## II. KONVENSİYANIN İDDİA EDİLƏN DİGƏR POZUNTULARI.

46. Ərizəçi cavabdeh dövlət orqanları tərəfindən mənzilində aparılan axtarış nəticəsində atasının ölümü ilə bağlı Konvensiyanın 2-ci maddəsinin pozuntusunun olduğunu iddia edirdi. Bundan əlavə, o Konvensiyanın 6- cə maddəsinin 1-ci bəndinin və Konvensiyanın 17-ci maddəsinin pozulmasından şikayət etmişdir.

47. Avropa Məhkəməsi qeyd edir ki ərizəçinin evinə polis əməkdaşlarının qəflətən gəlmələri nəticəsində yaranmış emosional gərginlik və stress atasının ölümünə səbəb ola bilərdi, lakin onun təbii səbəblərdən ölmədiyini təsdiq edən sübutlar mövcud olmamışdır. Onun ölümü təsadüfən axtarış aparılması ilə eyni zaman düşmüşdür. Beləliklə Konvensiyanın 2-şi maddəsinin pozulmasına dair şikayət Konvensiyanın 35-ci maddəsinin 4-cü bəndinə uyğun olaraq rədd edilməlidir.

48. Avropa Məhkəməsi ərizəçinin şikayətində irəli sürdüyü bu dəlillərlə tanış olaraq, bütün təqdim edilmiş materialları nəzərdən keçirərək, şikayət edilən məsələlərin onun səlahiyyətinə aid olub-olmamasını yoxlayaraq hesab edir ki, bunlarda Konvensiyada və onun protokollarında nəzərdə tutulmuş hüquq və azadlıqların pozulmasını göstərən hallar yoxdur. Nəticədə, bu şikayətlər açıq-aşkar əsassızdır və Konvensiyanın 35-ci maddəsinin 3-cü bəndinin “a” yarımbəndinə və 4-cü bəndinə uyğun olaraq rədd edilməlidir.

## III. Konvensiyanın 41-ci maddəsinin tətbiqi

49. konvensiyanın 41-ci maddəsində nəzərdə tutulmuşdur:

Əgər Məhkəmə Konvensiyanın və ona dair Protokolların müddəalarının pozulduğunu, lakin Razılığa gələn Yüksək Tərəfin daxili hüququnun yalnız bu pozuntunun nəticələrinin qismən aradan qaldırılmasına imkan verdiyini müəyyən edirsə, Məhkəmə zəruri halda, zərərçəkən tərəfə əvəzin ədalətli ödənilməsini təyin edir.

### A. Zərər

50. Mənəvi ziyanın əvəzi kimi ərizəçi 20.000 avro tələb etdi.

51. Rusiya Federasiyası hökuməti bu tələbi "qəbuledilməz və qeyri-qanuni"hesab etdi.

52. Avropa Məhkəməsi vurulmuş mənəvi ziyana görə ərizəçiyə 10.000 avro üstəgəl bu məbləğdən tutula bilən bütün vergilər həcmində kompensasiya müəyyən edir və vurulmuş ziyana görə onun qalan tələbini rədd edir.

### B. Məhkəmə xərcləri və məsrəflər

53. Ərizəçi məhkəmə xərclərinin və məsrəflərin ödənməsini tələb etməyib.

**C. Ödəmələrin gecikdirilməsinə görə faiz dərəcələri**

54. Avropa Məhkəməsi hesab edir ki, ödəmələrin gecikdirilməsinə görə faiz dərəcəsi, Mərkəzi Avropa Bankının kredit faizinin yüksək dərəcəsi üstəgəl üç faiz dərəcəsi ilə müəyyən edilir.

**Bu səbəblərə görə məhkəmə yekdilliklə**

1) Hökumətin etirazlarını müzakirə etmək qərarına gəlib, işə mahiyyəti üzrə baxılarkən daxili hüquqi müdafiə vasitələrinin iddia edilən tükəndirilməməsini yoxlayıb və onu rədd etdi;
2) axtarış aparılması zamanı səmərəli hüquqi müdafiə vasitələrinin olmaması ilə bağlı şikayəti qəbuledilən, qalan şikayətləri yolverilməzdir elan etdi.
3) qərara aldı ki Konvensiyanın 8-ci maddəsi ilə əlaqədar 13-cü maddəsi pozulub;
4) qərara aldı ki, Konvensiyanın 8-ci maddəsi pozulub;
5) qərara aldı:
(A) cavabdeh dövlət Konvensiyanın 44-cimaddəsinin 2-ci bəndinə əsasən bu qərar qüvvəyə mindiyi tarixdən üç ay ərzində ərizəçiyə mənəvi ziyana görə 10 000 (on min) avro üstəgəl tutula bilən hər cür vergilər, ödəniş tarixində tətbiq edilən məzənnə üzrə cavabdeh dövlətin valyutasına çevrilməklə.
6) Əvəzin ədalətli ödənilməsi qalan tələbini rədd etdi.

Məhkəmə Palatasının Sədri: İsabelle Berry LEFEVRE

Bölmə Katibi: Soren Nielsen